## İdman

*Dünya çempionu Eduard Məmmədov*

# "Seçdiyiniz peşədə lider olmağa çalışın"

Peşəkar kikboksçu, 28 qat dünya, 11 qat Avropa çempionu, Əməkdar idman ustası və Əməkdar məşqçi, Azərbaycan Kikboksinq Federasiyasının vitse-prezidenti Eduard Məmmədov "Məktəbdə..." layihəsinin qonağı olub.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən reallaşdırılan, "Kaspi" qəzeti və "Kaspi.az" saytının informasiya dəstəyi ilə ərsəyə gələn layihənin növbəti görüşü paytaxtdakı 292 nömrəli tam orta məktəbdə keçirilib.

5 mart – Bədən Tərbiyəsi və İdman Günü ərəfəsində təhsil müəssisəsində qonaq olan E.Məmmədov əvvəlcə məktəbin idman zalında şagirdlərin müxtəlif idman növləri üzrə məşq prosesini izləyib, onlarla səmimi söhbət edib.

Şagirdlərlə interaktiv şəkildə keçən görüşdə qonaq məktəb illəri, yaddaşından silinməyən xatirələri, sevdiyi müəllimlərindən danışıb. Uşaq yaşlarından idmana olan həvəsindən və peşəkar idmana gəlişindən, kikboksinq idman növünün fərqli özəlliklərindən söz açıb.







Ölkə Prezidenti İlham Əliyev tərəfindən bir sıra fəxri adlara layiq görülməsini bir idmançı kimi əməyinə verilən ən ali mükafat adlandıran E.Məmmədov dövlətimizin idmana, idmançılara qayğısından, bu sahədə ölkədə yaradılan geniş infrastrukturdan bəhs edib.

İdmanın uşaqların, yeniyetmələrin həyatına, sağlamlığına təsirləri barədə danışan kikboksçu növündən asılı olmayaraq şagirdlərə idmanla məşğul olmağı tövsiyə edib. "Çalışmalısınız ki, seçdiyiniz peşədə lider olasınız", deyə şagirdlərə müraciət edən qonaq onlara həyatda uğura nail olmağın yollarından danışıb, məktəbliləri düşündürən sualları cavablandırıb.

Qeyd edək ki, "Məktəbdə..." layihəsinin əsas məqsədi şagirdlərdə mənəvi-əxlaqi dəyərlərə hörmət və mütaliəyə marağı artırmaq, vaxtın düzgün idarə olunması, sosial şəbəkələrə aludəçiliyin aradan qaldırılması və mövcud imkanlardan səmərəli istifadə yollarını təbliğ etməkdən ibarətdir.